

Azərbaycanın daha bir beynəlxalq səviyyəli jurnalı impakt faktor alıb

Bu gün ölkədə həyata keçirilən uzaqgörən, məqsədyönlü, milli maraqların qorunmasına və əhalinin sosial təminatının artırılmasına yönəlmiş dövlət siyasəti nəticəsində respublikada iqtisadi, siyasi, mədəni, sosial, hərbi və digər sahələrdə yüksək inkişafa nail olunub. Azərbaycanda elmin inkişafına da kifayət qədər dövlət qayğısı var. Buna baxmayaraq, yüksək reytinqli elmi nəşrlər və istinadlar sahəsində, xaricdə patentləşmiş və tətbiq olunmuş nəticələr istiqamətində ciddi çatışmazlıqlar mövcuddur. Fundamental elmin müxtəlif sahələrində çalışan alimlərin qarşısında dünya elmində gedən proseslərə daha sıx inteqrasiya olunmaq, beynəlxalq aləmdə tanınmaq kimi vacib məsələlər durur. Elmi tədqiqatlar Azərbaycan dövlətinin sosial-iqtisadi və mədəni-mənəvi sahələrdəki vəzifələri ilə səsləşməli, elmi biliklərin cəmiyyətin təkamülündə rolu, yeri əsas strateji hədəfə çevrilməlidir. Azərbaycan alimləri həm də elmimizin dünyada tanıdılması istiqamətində birgə fəaliyyətə üstünlük verməlidirlər. Dünyada tanınan, beynəlxalq səviyyəli, nüfuzlu jurnallarımız da məhz bu işə xidmət edir. Ən mötəbər elmi qiymətləndirmə sistemi "Clarivate Analytics"də özünə yer alan "Applied and Computational Mathematics" jurnalı neçə illərdir ki, öz reytinqini qoruyub saxlayır, onun keyfiyyət əmsalı getdikcə artır.

2002-ci ildə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN), Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutu və Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən təsis edilən "Applied and Computational Mathematics" (ACM) jurnalının nəşrinə başlayarkən ən böyük məqsəd Thomson Reuters Agentliyinin (indiki "Clarivate Analytics") bazalarına daxil olmaq idi.

Nəşrin redaksiya heyətinə dünyanın 20-dək ölkəsini təmsil edən tanınmış alimlər cəlb olunub. İldə üç nömrəsi çap olunan jurnalda müasir nəzəri və tətbiqi riyaziyyatın aktual istiqamətlərində alınmış ən son elmi nəticələr dərc edilir.

2008-ci ildə Thomson Reutersin genişlənmiş siyahısına daxil olduqdan sonra dünyanın elmi ictimaiyyəti ilə əlaqələr genişləndi və 2010-cu ildə jurnala impakt faktor, təsir əmsalı verildi və bununla da, dünya elmi ictimaiyyətinin, alimlərin müraciətləri artdı. İndi jurnalın redaksiyası dünyanın 50 ölkəsinin 300-ə yaxın elm və təhsil müəssisəsi ilə əlaqə saxlayır. **Jurnalın baş redaktorlarından biri, Bakı Dövlət Universiteti Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktoru, akademik Fikrət Əliyev** deyir: Jurnalı dünya alimlərinin diqqətində saxlamaq, onu keyfiyyətli məqalələrlə təmin etmək üçün biz beynəlxalq səviyyədə tanınan "Control and Optimization With İndustrial Applications" konfranslar seriyasını RYTN-nin dəstəyi ilə davamlı şəkildə keçiririk. İndiyədək Bakıda, Ankarada və Sofiyada keçirilən bu konfranslar da öz növbəsində elmimizi və ümumiyyətlə, Azərbaycanı dünyada tanıtmaq kimi vacib işə öz töhfəsini verir. 2008-ci ildə Thomson Reuters Agentliyinin (indiki "Clarivate Analytics") "Science Citation İndeks Expanded" siyahısına düşən jurnal 2010-cu ildə Azərbaycan elm tarixində ilk dəfə olaraq 0,633 təsir əmsalına layiq görüldü.

"Clarivate Analytics"in Elmi İnformasiya İnstitutunun 2015-ci il üçün açıqlanan hesabatında "Applied and Computational Mathematics"in impakt faktorunun 0,717-yə yüksəldiyi göstərilirdi. Bununla da jurnal MDB məkanında ilk üçlüyə, Şərqi Avropa regionu üzrə ilk beşliyə daxil oldu. Bu, həmin dövr üçün böyük nailiyyət idi. "Clarivate Analytics"in 2017-ci il hesabatına əsasən jurnalın təsir əmsalı 2.365, 2018-ci il hesabatına əsasən isə 3,16 olmuşdur. Bununla da jurnal MDB məkanında I, Avropada IV, dünyada isə X yerdə qərarlaşdı.

Azərbaycan elmi ictimaiyyəti bu günlərdə yayılan daha bir xəbəri də sevinclə qarşılayıb. Belə ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı Dövlət Universitetinin nəzdində olan Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutu və AMEA-nın təsisçiliyi ilə dərc olunan "Web of Science" bazasının Q1 siyahısında yer alan "Applied and Computational Mathematics" (Tətbiqi və Hesablama Riyaziyyatı) beynəlxalq jurnalının təsir əmsalı (İmpact Factor) 3.898-ə yüksəlib. Beşillik təsir əmsalı isə 2.752 olub. Bunun isə başlıca səbəblərindən biri dünyanın tanınmış universitet və elmi tədqiqat mərkəzlərində çalışan alimlərin öz əsərlərində jurnalda nəşr olunan məqalələrə istinad etmələridir. Elə jurnalın qeyd olunan reytinqinin müəyyən edilməsində də bu istinadların sayı rol oynayıb.

Jurnalın fəxri redaktoru İllinoys Universitetinin (ABŞ) professoru Tamer Başar, baş redaktorları - Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktoru, AMEA-nın Rəyasət Heyətinin üzvü, akademik Fikrət Əliyev, AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun baş direktoru, akademik Əli Abbasov, Ukrayna MEA-nın Mexaniki Problemləri İnstitutunun professoru Vladimir Larindir.

Onu da qeyd edək ki, 2009-cu ildə Almatı şəhərində keçirilən Türk Dünyası Riyaziyyat Cəmiyyətinin üçüncü konqresində "Türkic World Mathematics Society (TWMS) Journal of Pure and Applied Mathematics" (Türk Dünyası Riyaziyyat Cəmiyyətinin "Təmiz" və Tətbiqi Riyaziyyat) jurnalının təsis edilməsi haqqında qərar qəbul olunmuş, onun da nəşri Bakı Dövlət Universiteti Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutuna həvalə edilmişdi. Jurnal qısa zamanda "Clarivate Analytics"in yeni yaradılmış "Emerging Sources Citation İndex" bazasında yer almışdı. 2016-cı ildə "Web of Science" jurnalı nominasiyası üzrə mükafata layiq görülmüşdür.

Azərbaycanda bu gün 360-dan çox elmi jurnal nəşr olunur ki, onlardan yalnız 17-si "Clarivate Analytics"in texniki şərtlərini ödəyə bilir. Quruma təqdim olunan bu 17 jurnaldan isə yalnız 4-ü seçilərək genişlənmiş siyahıya daxil edilib. Bunlar "Riyaziyyat Mexanika İnstitutunun əsərləri", Azərbaycan Riyaziyyat Cəmiyyətinin "Azerbaijan Journal of Mathematics", Türk Dünyası Riyaziyyat Cəmiyyətinin "TWMS Journal of Pure and Applied Mathematics" jurnalı və Xəzər Universitetinin ictimai-siyasi elmlər üzrə nəşr etdiyi jurnaldır.

Onu da deyək ki, ABŞ-ın "Clarivate Analytics" Agentliyinin bu günlərdə açıqlanan 2020-ci ilin hesabatına əsasən (bu hesabat ötən dövr üçün agentliyin siyahısında olan yenilikləri, siyahıya daxil olan və xaric edilən elmi jurnalları, onların impakt faktorlarının (təsir əmsalı) dinamikası və s. haqqında məlumatı əks etdirir), Bakı Dövlət Universitetinin (BDU) Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunda (TRETİ) nəşr olunan və "Science Citation İndex Expanded" (SCİE) bazasında yer alan "TWMS Journal Pure and Applied Mathematics" ("Türk dünyası Riyaziyyat Cəmiyyətinin (TDRC) "Təmiz" və "Tətbiqi riyaziyyat jurnalı") jurnalı 1.892 təsir əmsalı alıb.

Beləliklə, bu nəşr Azərbaycanın "Clarivate Analytics" Agentliyinin bazasına daxil olan və impakt faktor almış ikinci elmi jurnalıdır. Bununla bağlı **jurnalın baş redaktoru, TDRC-nin vitse-prezidenti, akademik Fikrət Əliyev** bizimlə söhbətində dedi: "Ümumiyyətlə, elmi jurnallar həmin ölkədə elmin inkişaf səviyyəsini göstərir. Azərbaycan ta qədimdən elm ocağı, elm məkanı olub. Bunu dünya elminə bəxş etdiyimiz böyük şəxsiyyətlər də təsdiq edir. Azərbaycanlı alimlərin aldıqları nəticələr dünya elmi ictimaiyyəti arasında böyük əks-səda doğurub həmişə. Beynəlxalq, dünyada tanınan jurnallara da həmişə ehtiyac duyulub. Bu sahədə təcrübəmiz var. Belə ki, vaxtilə "Elmlər Akademiyasının Xəbərlər" bülleteni hələ sovetlər dönəmində Thomson Reutersin bazasına daxil olub, dünya elmi ictimaiyyəti tərəfindən tanınıb. Biz "Applied and Computational Mathematics" jurnalının nəşrinə başlayanda da hədəfimiz bu idi, dünyanın ən nüfuzlu qiymətləndirmə sistemində yer almaq. Çətin də olsa, böyük zəhmət hesabına buna nail olduq. Bu gün isə Azərbaycanda nəşr olunan ikinci bir jurnalın impakt faktor alması böyük hadisədir və bunun da arxasında redaksiya kollektivinin gərgin əməyi durur. Diqqət edin, "Applied and Computational Mathematics" jurnalı da bizim digər elmi jurnallarımızla eyni vaxtda "Clarivate Analytics"in genişlənmiş siyahısına daxil olub. Qısa zaman kəsiyində impakt faktor ala bilməsi, zənnimcə, sevindirici haldır".

2010-cu ildən ingilis dilində nəşr olunan bu jurnalda nəzəri və tətbiqi riyaziyyatın müxtəlif sahələrinə aid yüksək səviyyəli, əsaslı rəydən keçən elmi məqalələr dərc olunur. Bütün məqalələr "MatReviews", "Zentrablatt", "VINITI" kimi nüfuzlu bazalarda referat edilir, "E-Letter", "Na Digest" elmi saytlarında anons olunur.

Fikrət Əliyev əldə olunan nəticənin kollektiv əməyin məhsulu olduğunu xüsusi vurğulayaraq hazırda genişləndirilmiş siyahıda özünə yer alan elmi jurnallarımızdan da danışaraq dedi: "Hər bir kollektivdə sağlam mühit mühüm şərtdir, hər kəsə əməyinə görə qiymət verilməlidir. Mən hər iki jurnalın əldə etdiyi nəticənin qazanılmasında böyük xidmətləri olan hər kəsə minnətdarlığımı bildirirəm. Bizə göstərdikləri köməyə görə Tamer Başar və Vladimir Larinə də təşəkkür edirəm.

Mən hazırda genişləndirilmiş siyahıda olan jurnallarımızdan da bunu gözləyirəm. Uğur birgə işləməkdədir. Biz bir-birimizin uğuruna sevinməliyik. Bir misal çəkim. 2010-cu ildə ACM jurnalı impakt faktor alanda Redaksiya Heyəti məşhur alimimiz Lütfi Zadədən təbrik məktubu almışdı. Məktubda o, təsir əmsalına görə kollektivi təbrik edir, uğurlar arzulayırdı.

Bəli, elmimizi dünyada tanıdan, həmvətənlərinin ən kiçik uğuruna belə sevinən böyük ustadlardan dərs almağa dəyər. İnanıram ki, əgər sağ olsaydı, bu böyük alim ikinci jurnalımızın da təsir əmsalı almasına sevinərdi.

Bu gün doğrudan da sevinməyə dəyər, çünki hər bir elmi jurnalın beynəlxalq səviyyədə uğuru Azərbaycan elmi ictimaiyyətinin nailiyyətidir. Türk Dünyası Riyaziyyat Cəmiyyətinin "Journal of Pure and Applied Mathematics" jurnalının impakt faktor alması Türk dünyasının uğurudur.

Biz də hər iki jurnalın redaksiya kollektivini, bu işdə əməyi keçən hər kəsi təbrik edir, Azərbaycanın dünyada tanıdılması kimi şərəfli işlərində uğurlar diləyirik.

Zümrüd QURBANQIZI,
"Respublika".

BŞTİ ötən tədris ilini uğurlu göstəricilərlə başa vurub

2020-2021-ci tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) tərəfindən ümumi təhsil sahəsində keyfiyyətin davamlılığının təmin edilməsi istiqamətində məqsədyönlü işlər görülüb. Bu tədris ili bir tərəfdən ciddi sınaqlar ili kimi yadda qalsa da, digər tərəfdən yeni imkanlar ili kimi səciyyələndirilə bilər.

Tədris ilində, həmçinin müasir dövrün çağırışlarına əsaslanmaqla inkişafı şərtləndirən dəyişikliklərə və qarşıda duran vəzifələrin icrasına nail olmaq məqsədilə BŞTİ-nin və İdarənin tabeliyindəki ümumi təhsil məktəblərinin imkanları səfərbər edilmişdir.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində 309 ümumi təhsil məktəbi, 3 xüsusi ümumi orta məktəb və 5 əyani-qiyabi axşam məktəbi olmaqla, cəmi 317 məktəb və 5 Uşaq-Gənclər İnkişaf Mərkəzi fəaliyyət göstərir. 2020-2021-ci tədris ilində BŞTİ-nin tabeliyindəki məktəblərdə 456 076 şagirdin təlim-tərbiyəsi ilə 28 167 müəllim məşğul olub.

BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrinin I siniflərini 44 847, IX siniflərini 34 874, XI siniflərini 20 024, XII siniflərini isə (əyani-qiyabi tam orta məktəb və qiyabi sinifləri) 146 nəfər bitirib. Paytaxt üzrə BŞTİ-nin tabeliyində olan ümumi təhsil müəssisələrinə və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyaların I siniflərinə qəbul olmaq üçün elektron sistem vasitəsilə 45 791 müraciət edilib. Ümumi təhsil məktəblərinin I siniflərinə şagird qəbulu zamanı əvvəlcə elektron sistemdə qeydiyyat prosesi, daha sonra isə məktəb seçimi prosesi aktivləşdirilib. Bu yolla müəyyən səbəblərdən elektron sistemdən istifadə etməkdə çətinlik çəkən valideynlərin qeydiyyat prosesini bitirmək üçün əlavə vaxt qazanması və digər valideynlərlə eyni anda məktəb seçimi mərhələsində iştirak edə bilməsi təmin olunub. Ümumi təhsil məktəblərinin tədris digər dildə aparılan bölmələri üzrə uşaqların I sinfə qəbul zamanı şifahi nitq bacarıqlarının qiymətləndirilməsi üçün müsahibə təşkil edilib. Müsahibə nəticəsi məqbul hesab edilməyən uşaqlar üçün isə Azərbaycan bölməsi üzrə məktəb seçimi imkanı yaradılıb.

2020-2021-ci tədris ilində paytaxt üzrə BŞTİ-nin tabeliyindəki 275 ümumi təhsil müəssisəsində 1083 məktəbəhazırlıq qrupu fəaliyyət göstərib. Məktəbəhazırlıq qruplarına 26 754 uşaq cəlb olunub. 2020-2021-ci tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələri üzrə 16 040 şagirdin elektron sistem (sy.edu.az) vasitəsilə yerdəyişməsi aparılıb.

Şagird yerdəyişməsinin elektronlaşdırılması məktəb-valideyn əlaqələrinin bu proses çərçivəsində daha da təkmilləşdirilməsinə və valideynlərin təhsil müəssisələri ilə təmasının daha rahat və şəffaf təşkilinə xidmət edir.

Respublika Fənn Olimpiadalarının final mərhələsinin nəticələrinə əsasən, BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrində təhsil alan şagirdlərdən 8-i qızıl, 28-i gümüş, 26-sı bürünc medal əldə edib. Respublika Fənn Olimpiadalarında ümumilikdə 62 məktəbli uğur qazanıb.

Ümumi təhsil məktəblərinin VI və VII sinif şagirdləri arasında VI Respublika fənn müsabiqələri keçirilib. Fizika, kimya, biologiya, riyaziyyat və informatika üzrə keçirilən fənn müsabiqələrinin final mərhələsinin nəticələrinə əsasən, Bakı şəhəri üzrə 3 nəfər riyaziyyat, 8 nəfər kimya, 3 nəfər fizika, 6 nəfər biologiya, 13 nəfər isə informatika fənni üzrə yüksək bal toplayaraq I, II və III yerlərə layiq görülüb.

Paytaxtdakı ümumi təhsil müəssisələrində "Sağlam təhsil-sağlam millət" layihəsinin davamlılığı təmin edilib. Layihə çərçivəsində 2020-2021-ci tədris ilində paytaxtdakı 39 ümumi təhsil müəssisəsində 170 "Sağlam təhsil" sinfi fəaliyyət göstərib. Həmçinin paytaxtdakı 20 məktəbdə 26 "Sağlam təhsil" məktəbəhazırlıq qrupu təşkil olunub.

2020-2021-ci tədris ili ərəfəsində BŞTİ-nin tabeliyindəki əsaslı təmir edilmiş təhsil müəssisələrinin təntənəli açılış mərasimləri keçirilib. Bakı şəhəri 154, 216, 251 nömrəli tam orta məktəblərin açılış mərasimlərində ölkə Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva iştirak ediblər. Həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də paytaxtın Sabunçu rayonunda yenidən inşa olunan 90 nömrəli və Suraxanı rayonundakı 97 nömrəli tam orta məktəblərdə yaradılan şəraitlə tanış olub.

Paytaxtda təhsil işçilərinin 24 978 nəfəri vaksinasiya prosesinə qoşulub. "Azərbaycan Respublikasında COVİD-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq paytaxtdakı təhsil müəssisələrində çalışanların vaksinasiya prosesi həyata keçirilir.

Tədris ilində ilk dərslər ibtidai siniflərdə "Gigiyena qaydalarına necə əməl edirəm?", V-IX siniflərdə "Müstəqil öyrənmə bacarıqlarına yiyələnmək zamanın tələbidir", X-XI siniflərdə isə "Məsuliyyətli vətəndaş qüdrətli dövlət deməkdir" mövzularına həsr olunub.

Ümumi təhsilin tam orta təhsil səviyyəsində təmayülləşmənin miqyası genişləndirilib. BŞTİ-nin tabeliyindəki 187 məktəbdə 709 təmayül sinif təşkil olunub. Təmayülləşmə ümumi təhsildə keyfiyyətin artırılmasına xidmət edir.

Bakı şəhəri üzrə 4 ümumi təhsil müəssisəsində 86 şagird inkluziv təhsilə cəlb edilib. Həmçinin "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inkluziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"na əsasən, məqsədyönlü işlər görülüb, bu sahədə müəllimlərin üzərinə düşən vəzifələr müəyyənləşdirilib.

Müəllimlərin işə qəbulu və yerdəyişməsi müsabiqəsinə BŞTİ tərəfindən 2020-2021-ci tədris ili üçün 1 739 vakansiya təqdim olunub. Müsabiqə və müsahibələr nəticəsində 1 600 nəfər işə qəbul edilib.

Pandemiya dövründə "Məktəblinin dostu" layihəsinin əhatə dairəsi genişləndirilib və ilkin olaraq şagird sayı çox olan məktəblərə şamil edilib. Belə ki, "Məktəblinin dostu" layihəsi Bakı, Abşeron və Sumqayıt üzrə 226 ümumi təhsil müəssisəsində fəaliyyət göstərib. Layihə BŞTİ-nin tabeliyindəki 186 ümumi təhsil müəssisəsini əhatə edib.

Sözügedən layihə çərçivəsində şagirdlər arasında "Əsgərə salam" aksiyası təşkil olunub. Həmçinin məktəblilər Vətən müharibəsində rəşadətli ordumuza dəstək olmaq üçün maraqlı videoçarxlar hazırlayıblar. "Məktəblinin dostu" layihəsinin təşkilatçılığı ilə mövcud sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq, məktəblilər arasında bir sıra onlayn yarışlar təşkil olunub.

Təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsi çərçivəsində BŞTİ-nin tabeliyindəki təhsil müəssisələri üzrə 211 layihə qeydiyyatdan keçib. Onlardan 147-si fərdi, 64-ü isə ümumi təhsil kateqoriyası üzrə müəyyən olunub. BŞTİ tərəfindən "Virtual məktəbdə bir gün" layihəsi həyata keçirilib. Layihə çərçivəsində ümumi təhsil müəssisələrində təşkil edilən distant dərslər BŞTİ rəhbərliyi və İdarənin əməkdaşları tərəfindən dinlənilib, "Virtual məktəb" platformasında tədris və təlim-tərbiyə prosesinin təşkilinin daha da təkmilləşdirilməsi, distant təhsilə cəlbolunma səviyyəsinin təhlili istiqamətində müəllim və məktəb rəhbərlərinin iştirakı ilə müzakirələr aparılıb. "Virtual məktəbdə bir gün" layihəsinin davamı kimi təşkil edilən müsabiqəyə ümumilikdə 193 onlayn dərs nümunəsi təqdim olunub. Onlardan 12-si qalib olub, 11-i isə fərqlənən dərs kimi qiymətləndirilib. Qaliblər BŞTİ tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıb.

Paytaxtın 123 ümumi təhsil məktəbində "Rəqəmsal bacarıqlar" layihəsi həyata keçirilib. Layihədə Bakı şəhəri üzrə 950 müəllim və 83 700 şagird iştirak edib. Layihə çərçivəsində VI sinifdə təhsil alan 1 440 şagirdin informatika fənninə olan marağının müəyyənləşdirilməsi məqsədilə qiymətləndirmə imtahanı keçirilib.

2020-2021-ci tədris ilində BŞTİ-nin tabeliyindəki 305 ümumi təhsil müəssisəsində "Kiçik akademiya" fəaliyyət göstərib. "Kiçik akademiya"ların fəaliyyətinin gücləndirilməsinə dair BŞTİ-nin Tədbirlər Planına əsasən, paytaxtın bütün məktəblərində "Kiçik akademiya" yaradılması nəzərdə tutulur.

BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrinin 12 şagirdi "Sabahın alimləri" X Respublika Müsabiqəsinin qalibi olub. Müsabiqənin ölkə mərhələsinin nəticələrinə görə, paytaxt məktəblilərindən 1-i I yerə, 3-ü II yerə, 8-i isə III yerə layiq görülüb. "Sabahın alimləri" X Respublika Müsabiqəsinin nəticələrinə əsasən, BŞTİ-nin tabeliyindəki 260 nömrəli tam orta məktəbin şagirdləri İntel İSEF-Beynəlxalq Elm və Mühəndislik Sərgisində Azərbaycanı təmsil etmək hüququ qazanıb.

BŞTİ-nin təşkilatçılığı ilə "Qarabağ Azərbaycandır!" adlı onlayn intellektual müsabiqə keçirilib. 294 şagirdin qatıldığı müsabiqənin əsas məqsədi şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsi işinin davamlı təşkilinə nail olmaq, Vətən müharibəsində şəhid olanların xatirəsini ehtiramla yad etmək, Azərbaycan Ordusunun göstərdiyi şücaətə uşaq və gənclərin diqqətini cəlb etmək, habelə xüsusi istedada malik olan uşaqları üzə çıxarmaqdan ibarətdir.

BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərinin VII-IX sinif şagirdləri arasında təşkil olunan müsabiqə şagirdlərdə Vətənin bütövlüyü uğrunda canından keçmiş Azərbaycanın igid oğullarının xatirəsini əbədiləşdirmək və xüsusi istedada malik olan uşaqların üzə çıxarılması məqsədilə keçirilib. Müsabiqənin nəticələrinə əsasən, 6 məktəbli "Təşəkkürnamə"yə, 5 məktəbli isə "Tərifnamə"yə layiq görülüb.

Ümumi təhsilin hər hansı səviyyəsini vaxtından əvvəl bitirmək istəyən istedadlı şagirdlər üçün eksternat qaydasında imtahan keçirilib. 1 (bir) şagird ibtidai təhsil səviyyəsi üzrə eksternat imtahanlarında müvəffəqiyyət qazanıb. Müxtəlif səbəblərdən əvvəlki illərdə ümumi orta (IX) və tam orta (XI) təhsil səviyyələrini başa vura bilməyən şəxslər üçün 2020-2021-ci tədris ilində təşkil edilən onlayn eksternat imtahanlarında ümumilikdə 316 nəfər iştirak edib. Onlardan 250 nəfəri imtahanın nəticələrinə görə müvəffəq olub.

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu tərəfindən paytaxt məktəblərində fəaliyyət göstərən 3 662 müəllim üçün inkluziv sinifdə təlimin təşkili, 506 müəllim üçün məktəbəhazırlıq qruplarında işin təşkili metodikası, 863 müəllim üçün ibtidai təhsil səviyyəsində şagirdlərdə oxuyub-anlama bacarıqlarının inkişaf etdirilməsi metodikası, 76 müəllim üçün isə yerlərdə metodistlərin hazırlanması mövzusunda ixtisasartırma təlimləri təşkil edilib.

Ölkədə təhsilin əlçatanlığının təmin edilməsi məqsədilə həyata keçirilən "Virtual məktəb" layihəsi çərçivəsində BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəbləri üzrə 447 843 şagird və 29 293 müəllim qeydiyyatdan keçib.

Teledərslərin interaktivliyini təmin etmək və məsafədən tədris imkanlarını genişləndirmək məqsədilə həyata keçirilən "Virtual məktəb" layihəsi üzrə səmərəli fəaliyyətinə, müəllim və şagirdlərə göstərdiyi dəstəyə görə İdarə tərəfindən 9 müəllim "Təşəkkürnamə"yə layiq görülüb.

Paytaxtın ümumi təhsil müəssisələrində tədris ili ərzində mövcud sanitar-epidemioloji vəziyyətlə əlaqədar mütəmadi olaraq dezinfeksiya işləri və qabaqlayıcı tədbirlər həyata keçirilib.

2020-2021-ci tədris ili ərzində Bakı məktəbliləri idman sahəsində də ciddi nailiyyətlərə imza atıblar. Paytaxt məktəbliləri idmanın müxtəlif növləri üzrə beynəlxalq və respublika yarışlarında 112 qızıl, 89 gümüş, 97 bürünc olmaqla, ümumilikdə 298 medal əldə ediblər.

Paytaxtdakı ümumi təhsil müəssisələri tərəfindən "Azərbaycan Ordusunun Vətən müharibəsindəki zəfər yürüşü və dünya hərb tarixində açdığı yeni səhifə" mövzusunda onlayn dərslər keçirilib.

Həmçinin "Vətənpərvər Azərbaycan gəncliyi" devizi altında "Zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindəndir" mövzusunda vebinar keçirilib. Vebinar Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX), BŞTİ və Azərbaycan Gənclər Fondunun birgə təşkilatçılığı, Binəqədi rayonundakı ümumi təhsil məktəblərinin Gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin iştirakı ilə təşkil edilib.

BŞTİ tərəfindən Vətən müharibəsində iştirak etmiş müəllimlərlə görüş keçirilib. İdarə rəhbərliyi və qazi müəllimlərin iştirak etdiyi görüşdə qazi müəllimlərin həm cəbhədəki, həm də məktəbdəki əməli fəaliyyətləri ilə şagirdlər və yetişməkdə olan nəsillər üçün örnək olduqlarından danışılıb.

2020-2021-ci tədris ilində BŞTİ-nin tabeliyində fəaliyyət göstərən 22 məktəbdə tikinti, əsaslı və cari təmir işləri yerinə yetirilib.

2020-2021-ci tədris ili ərzində BŞTİ-yə 22 123 müraciət daxil olub. Müraciətlərin əksəriyyəti dərhal cavablandırılıb və operativ həll olunub.

Mövcud sanitar-epidemioloji vəziyyətlə əlaqədar müəllim, şagird və valideynlər üçün sosial-maarifləndirmə layihələri həyata keçirilib, müxtəlif aktual mövzular üzrə onlayn müsahibələr təşkil olunub, xüsusi karantin rejiminin tələblərinə əməl olunması istiqamətində görülən işlərə dair ictimaiyyətə məlumatlar verilib.

Həmçinin paytaxt məktəblərinin uğurları, pandemiya vəziyyətində tədrisin təşkili və Vətən müharibəsində iştirak etmiş müəllimlər barədə layihələr də həyata keçirilib.

Əli SADIQOV,
"Respublika".